# SERTİFİKATDAN İSTİFADƏ TƏLİMATI

| Hazırladı | Yoxladı | Razılaşdı | Təsdiqlədi |
|---|---|---|---|
| Keyfiyyətin idarə olunması şöbəsinin mütəxəssisi **Ülviyyə Məhyəddinova** | Keyfiyyətin idarə olunması şöbəsinin müdiri **Faiq Məmmədov** | Keyfiyyətə nəzarət departamentinin müdiri **Vüqar İsmayılzadə** | Keyfiyyəti İdarəetmə Sisteminin qrup lideri **Tamilla Əliyeva** |
| | | | |

*« Bu sənəd AQTİ mülkiyyətidir və hüquqları qanunun mülki müddəalarına uyğun olaraq qorunur »*

## 1. TƏLİMATIN MƏQSƏDİ

Bu təlimatın məqsədi Azərbaycan Qida Təhlükəsizlyi İnstitutunun (bundan sonra - AQTİ) Sertifikasiya şöbəsi tərəfindən sertifikatlaşdırılması həyata keçirilən müəssisələrin Serifikatı istifadə qaydalarını müəyyən etməkdir. Bu sənəd AZS ISO/IEC 17021-1:2015 "Uyğunluğun qiymətləndirilməsi — İdarəetmə sistemləri üzrə audit və sertifikatlaşdırma xidmətlərini göstərən orqanlara dair tələblər — 1-ci hissə: Tələblər" standartının 8.3-ci yarımbənndində göstərilən Sertifikatlaşdırmanın adının çəkilməsi və nişanlardan istifadə qyadısının tələblərini əhatə edir.

## 2. ƏLAQƏLİ SƏNƏDLƏR

- ISO 9001:2015 Keyfiyyəti idarəetmə sistemləri. Tələblər
- ISO 9000:2015 Keyfiyyət idarəetmə sistemləri. Əsas müddəalar və lüğət
- ISO/IEC 17021-1:2015 Uyğunluğun qiymətləndirilməsi. İdarəetmə sistemləri üzrə audit və sertifikatlaşdırma xidmətlərini göstərən orqanlara dair tələblər – 1-ci hissə: Tələblər
- ISO/IEC 17030:2021 Konformasiyanın qiymətləndirilməsi – üçüncü tərəfin
- konformasiya nişanlarına dair ümumi tələblər
- ISO/IEC 17000:2020 Uyğunluğun qiymətləndirilməsi. Lüğət və ümumi prinsiplər.
- ISO 22003-1:2022 Qida təhlükəsizliyi – 1-ci hissə: Qida təhlükəsizliyi idarəetmə sistemlərinin auditini və sertifikatlaşdırılmasını həyata keçirən orqanlara dair tələblər

## 3. TERMİNLƏR

- Uyğunluq nişanı - uyğunluğu qiymətləndirən qurumun akkreditasiya olunduğunu bəyan etmək məqsədi ilə istifadə etdiyi nişan

## 4. CAVABDEHLƏR

- Sertifikasiya şöbəsinin müdiri
- Keyfiyyət üzrə mütəxəssis
- Bütün personal

## 5. FƏALİYYƏTLƏRİN TƏSVİRİ

### 5.1 Sertifikatlaşdırılmış müştəriyə dair tələblər

5.1.1 Sertifikatlaşdırılmış müştəri aşağıda qeyd olunan tələbləri yerinə yetirməlidir:

- AQTİ tərəfindən Uyğunluq sertifikatı istifadə hüququ verilmiş təşkilatlar müqavilə qüvvədə olduğu müddət ərzində bu təlimatda qeyd olunan şərtlərə əməl etməlidir. Bu təlimatın müddəalarından kənar sertifikat istifadə halları aşkar edildiyi təqdirdə qanunvericiliyə uyğun olaraq tədbir görüləcəkdir;
- İnternet, ictimaiyyətə açıq məlumatlar, broşuralar və ya reklamlar kimi kütləvi informasiya vasitələrində sertifikatlaşdırma statusuna istinad edərkən müqavilə və bu təlimatın şərtlərinə əməl edilməlidir;

- Sertifikatlaşdırma müddətinin başa çatması, Sertifikasiya şöbəsi tərəfindən sertifikatlaşdırmanın dayandırılması və ya ləğv edilməsi kimi hallarda sertifikat istifadə və eləcə də sertifikatlaşdırmaya dair istinadı ehtiva edən reklam fəaliyyətləri dayandırılmalıdır;

- Sertifikatlaşdırmanın əhatə dairəsi dəyişdirildikdə bütün reklam materialları/fəaliyyətləri də müvafiq olaraq dəyişdirilməlidir;

- Sertifikatlaşdırmanın sertifikatlaşdırma çərçivəsindən kənar fəaliyyətlərə aid olduğu təəssüratı yaranmamalıdır;

- Sertifikatdan AQTİ-nin və ya sertifikatlaşdırma sisteminin reputasiyasına xələl gətirəcək və ictimai etimadın itirilməsinə səbəb olacaq şəkildə istifadə edilməməlidir;

- Təkrar sertifikatlaşdırmadan keçməyən/keçə bilməyən müştərilər öz ərazisində(sahələrində) və ya istehsal olunmuş halal məhsul/xidmətlərdə, market və ya supermarketlərin keçidlərində sertifikatın istifadəsini dayandırmalıdırlar;

- Sertifikatlaşdırılmış müştəri təlimatda qeyd olunan şərtləri yerinə yetirmədiyi halda sertifikatdan istifadənin dayandırılması, ləğv edilməsi və ya sertifikasiya sahəsinin məhdudlaşdırılması kimi tədbirlər həyata keçiriləcək.

- Sertifikatlaşdırılmış müştəri (ISO 22000:2018) AQTİ sertifikatından aşağıda qeyd edilənlərdə, istifadə etmək, hər hansı açıqlama vermək və ya sertifikatlaşdırma statusuna istinad etmək qadağandır;

  a. məhsul;
  
  b. etiket;
  
  c. qablaşdırma (ilkin, ikincil və ya hər hansı digər formada);
  
  d. məhsul analiz sertifikatları və ya məhsul uyğunluq sertifikatları
  
  e. Məhsulun, prosesin və ya xidmətin AQTİ Uyğunluq (ISO 22000:2018) tərəfindən təsdiqlənməsini nəzərdə tutan hər hansı digər şəkildə
  
  f. sertifikatlaşdırmanın əhatə dairəsinə istisnalar tətbiq edildikdə.

- Sertifikatlaşdırılmış müştəri tərəfindən AQTİ Uyğunluq (ISO 22000:2018) istifadəsi bütün növ yoxlamalarda sertifikatlaşdırma orqanı tərəfindən yoxlanılır. Sertifikatın istifadəsi ilə bağlı hər hansı uyğunsuzluq, Sertifikatın istifadənin korreksiyasını və onun gələcək istifadəsi üçün düzəldici tədbirlərin görülməsini tələb edir.

## 5.2 AQTİ uyğunluq sertifikatı istifadəsi

**5.2.1** Uyğunluq sertifikatı müştərinin sertifikatlaşdırma sahəsinə daxil olmayan bölmə, müştəriyə tabe qurum, filial və ya ortaqlar tərəfindən istifadə edilə bilməz;

**5.2.2** Sertifikatldırılmış müştəri sertifikatı oxunaqlığını pozacaq şəkildə çoxalda və ya qeyri-qanuni üsulla orijinal nüsxə və ya surətlərində dəyişiklik edə bilməz;

**5.2.3** Sertifikatldırılmış müştəri AQTİ-nin nəzarəti və icazəsi olmadan sənədi başqa dillərə tərcümə edə bilməz;

**5.2.4** Sifarişçi sertifikatlaşdırma statusu haqqında kütləvi informasiya vasitələrində (internet seti, reklamlar, kataloqlar və digər sənədlər) məlumat verdikdə aşağıdakı tələblərini yerinə yetirməlidir. Sertifikat haqqında məlumat verdikdə heç bir yanlışlığa yol verməməlidir.

- Yanlışlığa aparan hallarda sertifikatdan istifadə etməməlidir.
- Sertifikatın qüvvədə olması müvəqqəti dayandırıldıqda və ya o ləğv edildikdə ondan reklam məqsədilə istifadə edilməməlidir.
- Sertifikatın tətbiq sahəsi məhdudlaşdırıldıqda reklam materiallarında düzəlişlər etməlidir.
- Keyfiyyəti idarəetmə sisteminin sertifikatına istinad edildikdə, bunu məhsulun (xidmətin) və ya prosesin sertifikatlaşdırılması kimi anlaşılmasına yol verilməməlidir.
- Sertifikatın sertifikatlaşdırma sahəsinə aid olmayan fəaliyyətlərə şamil edilməsi kimi başa düşülməsinə yol verilməməlidir.
- Azərbaycan Qida Təhülükəsizlik institutunun imicinə mənfi təsir edən və ya sertifikatlaşdırma sisteminə ictimaiyyətin inamının azalmasına səbəb olan hallarda sertifikatdan istifadə etməməlidir.

**5.2.5** Bu təlimatın 5.2.4 – cü maddəsinin tələblər yerinə yetirilmədiyi təqdirdə , düzəldici fəaliyyət tədbiri , sertifikatın qüvvədə olmasının müvəqqəti dayandırılması və ya onun ləğvi haqqında informasiyanın nəşri və lazım gələn halda məhkəmə iddialarının irəli sürülməsi daxildir.

# DƏYİŞİKLİKLƏRİN QEYDİYYATI

| **SƏNƏDİN ADI** | SERTİFİKAT VƏ NİŞANDAN İSTİFADƏ TƏLİMATI | | | | |
|---|---|---|---|---|---|
| **SƏNƏD №** | AQTİ-SS-T-004 | | | | |
| **Tarix** | **Dəyişiklik №** | **Səhifə №** | **Dəyişikliyin təsviri** | **İcra etdi** | **Təsdiq etdi** |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |

# TANIŞLIQ VƏRƏQİ

| S.s. | Vəzifə | S.A.A. | İmza | Tarix | Qeyd |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |